Xalq qəzeti



30 noyabr / 2021

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 371

Bakı şəhəri, 27 noyabr 2021-ci il

***"COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında***

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Peyvənd Sertifikatı"nın forması" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Əks-göstəriş Sertifikatı"nın forması" təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** "COVID-19-RT-PZR Analiz Nəticəsi Sertifikatı"nın forması" təsdiq edilsin (4 nömrəli əlavə).

**5.** "İmmunitet Sertifikatı"nın forması" təsdiq edilsin (5 nömrəli əlavə).

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***